

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 56 (20.957)

1 aprel 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının ilk buraxılış mərasimi keçirilib



*Martın 29-da Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsində ixtisas kursunu başa vurmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının buraxılış mərasimi keçirilib. Mərasimi hərbi hissənin zabiti, polkovnik-leytenant Mənsum Əhmədov açıb.*

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, ölkəmizdə milli ordu quruculuğu xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk peşəkar ordu qurumlarından biri olan 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. Naxçıvanda peşəkar ordu hissəsinin yaradılması münasibətilə 1992-ci il oktyabrın 9-da ilk hərbi parad keçirilib. Qeyd olunub ki, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ordu quruculuğuna başlayan ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu sahədə mühüm addımlar atılıb. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun gücləndirilməsi prosesi xeyli sürətləndirilib. Həyata keçirilən tədbirlər nəticəsində silahlı qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb.

Bildirilib ki, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Güclü ordu yaradılması istiqamətində görülən işlərin nəticəsində muxtar respublikanın etibarlı müdafiəsi təmin edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hərbi hissələr üçün onlarla yeni binalar – əsgəri-məişət yaşayış kompleksləri, müxtəliftəyinatlı obyektlər tikilib istifadəyə verilib.

Vurğulanıb ki, bu gün ixtisas kursunu tam başa vurmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün çox əlamətdar bir gündür. Kurs dövrü müxtəlif ixtisaslar üzrə bilik və bacarıqlara yiyələnmiş bu məzunlar muxtar respublikanın müxtəlif hərbi hissələrində öz xidmətlərini layiqincə davam etdirəcəklər. Silahlı qüvvələrin Naxçıvanda yerləşən hərbi hissələrində nümunəvi xidmət üçün yüksək şərait yaradıldığını diqqətə çatdıran ordu komandanı məzunlara xidmətdə uğurlar arzulayıb.

Məzunlar adından çıxış edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Firdovsi İsayev Vətənə şərəflə xidmət edəcəklərinə, verilən tapşırıqları canla-başla yerinə yetirəcəklərinə söz verib.

Valideyn İntizam Cümşüdov isə məzunlara xoş arzularını çatdırıb, övladının hərbçi olmasından böyük qürur hissi keçirdiyini deyib.

Sonra məzunlara ixtisas hazırlığı kursu bitirmələri haqda sertifikatların təqdim olunması mərasimi keçirilib.

Sonda kursu müxtəlif ixtisaslar üzrə bitirən məzunların nümunəvi çıxışları və təntənəli keçidi olub.

**Səbuhi HƏSƏNOV**

## Pedaqoji təcrübənin başlanğıc konfransı

*Naxçıvan Dövlət Universitetində 2013-2014-cü tədris ilinin ikinci semestrinə aid pedaqoji təcrübənin başlanğıc konfransı keçirilmişdir.*



Konfransı universitetin rektoru, professor Saleh Məhərrəmov açaraq pedaqoji təcrübənin muxtar respublikanın ali və ümumtəhsil müəssisələrinin sıx əməkdaşlığı, tələbələrin pedaqoji təcrübəyə yiyələnmələri baxımından əhəmiyyətindən, təcrübi dərslər zamanı informasiya-kommunikasiya texnologiyalarından istifadənin, elmi-kütləvi, mədəni tədbirlərin keçirilməsinin zəruriliyindən danışmışdır.

Pedaqoji təcrübənin təşkilinə aid müasir tələblərdən bəhs edən universitetin Tədris şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov bildirmişdir ki, növbəti pedaqoji təcrübədə universitetin 6 fakültəsinin pedaqoji profilli 15 ixtisası üzrə 243 nəfər IV kurs tələbəsi, eləcə də 14 ixtisas üzrə 256 nəfər III kurs tələbəsi muxtar respublikanın 19 tam orta məktəbində təcrübədə olacaqlar. Rafiq Rəhimov IV kursların beş, III kursların isə altı həftə ərzində pedaqoji təcrübə keçəcəkləri, kredit təhsil sistemi ilə əlaqədar tətbiq olunacaq yeniliklər, sənədləşmə işləri – təcrübə jurnallarının, məktəb rəhbərlərinin və təcrübəçilərin iş planlarının, icmal və gündəliklərin, hesabatların hazırlanması haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, pedaqoji təcrübənin yekunu da boloniya sisteminə uyğun olaraq, 100 ballıq sistem üzrə qiymətləndirilməsi aparılacaq.

Konfransda Ümumi tarix kafedrasının dosenti İsmayıl Zeynalov metodistlərin təcrübə dövründə yerinə yetirəcəyi işlər, Pedaqogika və psixologiya kafedrasının baş müəllimi Solmaz Bayramova təcrübə dövründə pedaqogika və psixologiya üzrə görüləcək işlər barədə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək muxtar respublikada təhsilin inkişafına göstərilən qayğıdan, ümumtəhsil məktəblərində yaradılan yüksək şəraitdən bəhs etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və qayğısı ilə təkcə 2013-cü ildən bu günə kimi 27 tam orta məktəb istifadəyə verilmiş, 15 yeni məktəb binası isə tikilməkdədir. Təhsil naziri təcrübəçi tələbələrə uğurlar arzu edərək bildirmişdir ki, mövcud nöqsanların, kadr çatışmazlığının aradan qaldırılması gələcəyin pedaqoqları olacaq bugünkü tələbələrin intellektual səviyyələrindən, peşə hazırlıqlarından asılıdır. Tələbələrin mükəmməl pedaqoji təcrübə keçmələri üçün ümumtəhsil məktəblərində hər cür şərait yaradılmış, qabaqcıl pedaqoqlar bu işə cəlb olunmuşlar.

Sonda konfrans iştirakçıları ötən illər ərzində keçirilən pedaqoji təcrübə ilə bağlı fotostendlərə baxmışlar.

**Mehriban SULTAN**

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər müəssisələrin metodist və tərbiyəçilərinin iştirakı ilə kurs təşkil edilmişdir.*

## Dövlət proqramının icrası çərçivəsində komitədə kurs təşkil edilib



Tədbiri komitənin sədri Ramilə Seyidova açaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın əsas məqsədi muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarını təmin etməkdən, cəmiyyətə inteqrasiyasına nail olmaqdan, sosial reabilitasiyasını gücləndirməkdən, müasir informasiya texnologiyalarından istifadə imkanlarını artırmaqdan, onların məktəb mühitinə uyğunlaşmalarını təmin etmək üçün müvafiq pedaqoji kadr hazırlığı aparmaqdan, inklüziv və məsafədən (distant) təhsilə keçidə zəmin yaratmaqdan ibarətdir. Dövlət proqramına uyğun olaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qarşıya qoyulmuş vəzifələrin icrasını daha mütəşəkkil həyata keçirməyə çalışır. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planının məktəbəqədər təhsil müəssisələri üzrə görüləcək işlər hissəsi məhdud fiziki və məhdud əqli imkanlı uşaqların valideynləri üçün arzuolunan fəaliyyətdir. Məktəbəqədər yaşda olan sağlamlıq imkanları məhdud uşaqların müəyyənləşdirilməsi və onlar haqqında məlumat bazasının yaradılması, bu uşaqların Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə yerləşdirilməsi, əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə cəlb edilməsi, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən tədbirlərin görülməsi bu hissənin prioritetləri sırasındadır.

Qeyd edilmişdir ki, son illər muxtar respublikada müasir məktəbəqədər təhsil müəssisələrinin tikilib istifadəyə verilməsi, burada uşaq aləminə uyğun şəraitin yaradılması məktəbəqədər yaşda olan uşaqların bu müəssisələrə gətirilməsinin sayını xeyli artırmışdır. Bununla yanaşı, etiraf etmək lazımdır ki, valideynlər sağlamlıq imkanları məhdud uşaqlarını uşaq bağçalarına ya aparmaq istəmir, ya da belə hallarda çətinliklərlə üzləşirlər. Unudulmamalıdır ki, fidanların uşaq bağçalarına qədəm qoymaları onların cəmiyyətə inteqrasiyasına ilk addımıdır. Bu, mümkün olmadıqda onlar özlərinə qapanır, inteqrasiya çətinləşir və sağlam uşaqlarla aralarında məsafə yaranır. Proqrama uyğun həyata keçiriləcək tədbirlər, müvafiq kurslara cəlb olunmaqla təlim-tərbiyə işinin təşkilində məsul işçilərin bu sahədə peşəkarlıq səviyyələrinin artırılması sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil müəssisələrindən yararlanmasında və digər uşaqlara uyğunlaşmasında mövcud auranı dəyişəcəkdir. Ümumtəhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təhsil alması şəbəkəsinin genişləndirilməsi və onların inklüziv təhsilə cəlbi bütün uşaqların erkən yaşda bir-birlərini dərk etmələrinə gətirib çıxaracaqdır.

Vurğulanmışdır ki, inklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan insanların təlim prosesinə cəlb olunmasıdır. Bu təhsil forması istər sağlam insanların, istərsə də əlillərin bərabər təhsilalma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. Əqli və fiziki imkanları məhdud uşaqların inklüziv təhsilə cəlbi bu baxımdan proqramda öz əksini tapmışdır.

Tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Nazilə Ləzgiyeva çıxış etmişlər.

Çıxış edənlər vurğulamışlar ki, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər müəssisələr qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin uğurlu icrası sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbində və cəmiyyətə layiqli vətəndaş kimi yetişməsində mühüm rol oynayacaq.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**Səbuhi HÜSEYNOV**

## Orta tibb işçilərinin sertifikasiya-test imtahanına başlanılıb

*Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılmasına 2011-ci ilin sentyabr ayından başlanmış, təkcə keçən il 187 nəfər həkim sertifikasiya imtahanında iştirak etmiş, onlardan 177 nəfəri test imtahanlarını və müsahibə mərhələsini başa vurmuşdur.*

Martın 28-də keçirilən növbəti test imtahanında isə orta tibb işçilərinin sertifikasiya mərhələsinə start verilmişdir. İlk mərhələdə Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanası, Yoluxucu Xəstəliklər Mərkəzi və Dəri-Zöhrəvi Dispanserinin orta tibb işçiləri öz bilik və bacarıqlarını sınamışlar.

Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilən test imtahanında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Sertifikasiya İmtahan Komissiyasının sədri Süleyman Cəfərov çıxış edərək bildirmişdir ki, hazırda dünya tibb elmində çox böyük inkişaf gedir, irəliləyişlərə nail olunur. Əvvəllər müalicə olunmayan xəstəliklər indi artıq müalicə edilir, yeni təfəkkürə, müasir elmi biliklərə yiyələnən kadrlar yetişir. Kadr potensialının gücləndirilməsi istiqamətində ən önəmli addımlardan biri də tibb işçilərinin sertifikasiyasıdır. İndi bütün qabaqcıl ölkələrdə olduğu kimi, respublikamızda da beş ildən bir imtahan verib sertifikat almayan tibb işçiləri praktik fəaliyyətlə məşğul ola bilməzlər. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmalarına, tibb sənətinin məsuliyyətini daha dərindən dərk etmələrinə imkan yaradır. Bu proseslər muxtar respublikamızda da həkimlərin bilik və peşə bacarıqlarının artırılmasını zəruri edir. Sertifikasiya əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılması məqsədilə həyata keçirilir. Bu, həkim və orta tibb işçilərinin nəzəri, həmçinin təcrübi bilik və bacarıqlarını daha da artırmalarına imkan yaradacaqdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən 35 nəfərə paylanmış, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilmişdir.

Test imtahanının yekunlarına görə, mütəxəssislərdən 16 nəfər 90-100,11 nəfər 80-90, 4 nəfər 70-80, 2 nəfər isə 60-70 arası bal toplayaraq test imtahanından keçərli sayılmışlar. İki tibb bacısı isə zəruri həddi keçə bilməmişdir. Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Kəngərlilər Rusiyanın Qafqazdakı idarəsinin sənədlərində

## (tarixi-hüquqi oçerk)

**Oleq KUZNETSOV, tarix elmləri namizədi (Moskva)**

*Vaxtilə müasir Azərbaycanın ərazisində Rusiya imperiyasının hökmranlığı illərində yerli administrasiyanı kəngərlilər (və yaxud Kəngərli) qədər məşğul edən başqa bir tayfa olmamışdır (XIX əsrin rəsmi sənədlərində "kenqerli"nin digər yazılış formasına – "Kyanqerlı"ya da rast gəlinir ki, bu da Rusiya Ordusunun Əlahiddə Qafqaz Korpusu sıralarında 1829-1856-cı illərdə fəaliyyət göstərmiş və dəfələrlə döyüş meydanlarında şöhrət qazanmış "Kəngərli süvarisi" ("Konniça Kenqerli") adlanan qeyri-nizami hərbi birləşmə ilə bağlıdır. Bu hərbi birləşmə istisnasız olaraq eyniadlı subetnosun nümayəndələrindən komplektləşdirilirdi).* **Kəngərlilər XIX əsrin ikinci rübü ərzində hərbi-idarə və tarixi-hüquqi cəhətdən elə parlaq və özünəməxsus nadir sosial hadisədir ki,** *onların statusunun müəyyənləşdirilməsi və sonrakı nizamlanması məsələlərinə imperator I Nikolay da daxil olmaqla o zamankı Rusiya hakimiyyətinin aşağıdan yuxarıya bütün pillələri dəfələrlə müdaxilə etməli olmuşlar.*

Gəlin bəri başdan şərtləşək ki, biz bu tayfanın etnoqrafik oçerkini yazmağı qarşımıza məqsəd qoymadığımızdan diqqətimizi yalnız bir yarım əsr bundan əvvəl Zaqafqaziyada digər müsəlman tayfaları arasında Kəngərlilərin özünəməxsus (əgər "əlahiddə" demək mümkün deyilsə) vəziyyətini müəyyənləşdirən normativ aktlar və ona qədər mövcud olmuş bürokratik aktların məzmununun təhlili üzərində cəmləşdirəcəyik. Bu mənbələrin əsas hissəsi "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktlar"da (QAKA) ("Aktı, sobrannıe Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey" – AKAK) çap olunsa da, indiyədək sistemləşdirmə və elmi dərketmə predmetinə çevrilməmişdir. Buna görə də bu qəbildən olan ilk xüsusi məqalə kimi onun qarşısında qoyulan əsas vəzifə Rusiya imperiyasının Qafqazdakı milli siyasətində konkret tarixi nümunədə hər hansı bir konkret xalq və tayfanın ənənə və məişətinin xüsusiyyətlərindən asılı olaraq, yanaşma variantlılığının mövcud olduğunu göstərməkdən ibarətdir.

1826-1828-ci illər Rusiya-İran müharibəsi nəticəsində imzalanmış Türkmənçay sülh müqaviləsinə uyğun olaraq, Naxçıvan xanlığı ərazisinin – yəni yaşadıqları ərazinin Rusiya yurisdiksiyasına keçməsilə əlaqədar olaraq Kəngərlilər Rusiya imperiyasının hakimiyyəti altına düşdülər. **QAKA görə, Kəngərlilər ilk dəfə piyada qoşunları generalı İ.F.Paskeviçin imperator I Nikolayın adına göndərdiyi İxlaskar raportunda "Kəngərlilərin Naxçıvan süvarisi" ("Naxiçevanskaya konniça Kenqerli") kimi xatırlanır. Bu raportda Rusiya Ordusunun Əlahiddə Qafqaz Korpusunun türk qoşunlarına qarşı Saqanlıq dağ silsiləsində 15-17 iyun tarixlərindəki üçgünlük döyüşləri təsvir olunur.** Sənədin mətnindən belə aydın olur ki, Kəngərli süvarisi Qara dəniz kazakları ilə birlikdə ümumkazak alayını təşkil etmiş və general-mayor Sergeyevin qeyri-nizami süvari dəstəsi tərkibində əvvəlcə rus qoşunlarının ön hissəsində silsilənin hər iki yamacındakı meşəliklə irəliləmiş və bununla da, korpusun əsas qüvvələrinin gizli manevretmə imkanlarını təmin etmişlər. Sonda qələbə ilə nəticələnmiş həmin döyüşün son mərhələsində Kəngərlilərin atlı döyüşçüləri Qara dəniz kazakları ilə birlikdə rus qoşunlarının başında irəliləməklə cinahı mühasirəyə almış, sonra isə Osmanlı qoşunlarının əsas qüvvələrinin arxasına keçə bilmişlər. Türkiyənin Asiya hissəsindəki 1829-cu il kampaniyasının bütün gedişi zamanı Kəngərli süvarisi, əsasən, ümumkazak alayı tərkibində fəaliyyət göstərmişdir. Müstəqil bölmə kimi yalnız polkovnik-leytenant knyaz M.Z.Arqutinski-Dolqorukinin dəstəsi Olti ekspedisiyasında 18-20 sentyabrda Olti qalasının bilavasitə mühasirəsində, onun atəşə tutulmasında iştirak etmişdir ki, bu da nəticədə, qarnizonun təslim olmasına gətirib çıxarmışdır. Gördüyümüz kimi, Rusiya tabeliyinə keçdikləri andan etibarən Kəngərlilər Qafqazdakı rus hərbi komandanlığı və mülki idarəçiliyi tərəfindən rifahının əsasını yalnız hərbi və hərbi-polis qulluğu təşkil edən icma kimi qəbul edilirdi.



Fəxri bayraq, Kəngərli süvari dəstələrinə döyüşlərdə göstərdikləri şücaətə görə təqdim edilmişdir



Əlahəzrət İmperatorun xüsusi mühafizə dəstəsinin Müsəlman eskadronunun atlısı mərasim geyimində. Ağ rəngli mərasim uniforması Kəngərli süvarilərinin mərasim geyimləri əsasında hazırlanmışdır



Kalbalı xan Naxçıvanski



İsmayıl xan Naxçıvanski

Ümumkazak alayı tərkibində 1829-cu ildə Osmanlılara qarşı hərbi əməliyyatlarda Kəngərlilərin Qara dəniz kazakları ilə çiyin-çiyinə iştirakı sübut edir ki, bu tayfa öz sosial mükəlləfiyyətinə və vəziyyətinə görə o zamankı Azərbaycanın digər əhalisi arasında xüsusi yer tutur, həyat tərzinə və hüquqi statusuna görə onlardan fərqlənirdi. Kəngərlilər XIX əsrin birinci yarısında Zaqafqaziya müsəlmanları arasında analoqu olmayan ictimai korporasiya təşkil edirdi. Bunu Qafqazdakı Rusiya administrasiyasının sənədləri əyani şəkildə sübut edir. Qeyd edək ki, bu tayfanın sayı XIX yüzilliyin birinci ilə ikinci qərinələrinin kəsişməsi dövründə rəsmi məlumatlara görə, 1270 ailədən və yaxud, təqribən, 10000 nəfərdən ibarət idi.

Kəngərlilərin həyatının məzmun və mənasını qulluq təşkil edirdi, şərəf və onunla qırılmaz şəkildə bağlı olan verilmiş sözə və ya anda sədaqət mövcudluqlarının mənəvi dominantı olduğundan onları heç nə üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsindən imtina etməyə məcbur edə bilməzdi. **Azərbaycan torpaqlarının Rusiya imperiyasına birləşdirilməsindən sonra öz hərbi birləşmələri ilə Əlahiddə Qafqaz Korpusu qoşunları tərkibində daimi əsaslarla hərbi qulluq keçən Kəngərlilər yeganə icma idilər.** Tez-tez Rusiya əsgərlərinin və yaxud Qafqaz kazaklarının öhdəsindən gələ bilmədikləri məsuliyyətli və xüsusi tapşırıqları onlar yerinə yetirirdilər. Buna misal olaraq, 1837-ci ilin yazında və yayında Ordubadda baş vermiş bir hadisəni göstərmək olar. Bu hadisə Rusiya imperiyasının bütün idarəetmə pillələrini – Ordubad mahal polis idarəsindən tutmuş Əlahəzrət İmperatorun Xüsusi Dəftərxanasına qədər bütün pillələri bürümüş qızğın bürokratik yazışmaya səbəb olmuşdur.

Belə ki, Ordubad yaxınlığındakı Vənənd kəndinin sakini, kifayət qədər qaranlıq şəxsiyyət olan Molla Məhəmmədsadıx aprelin 30-da İrandan geri dönüb kəndlərində vaizlik etməyə başlayır. Həmkəndlilərinin ifadələrinə görə, onun əvvəllər heç bir əmlakı olmayıbmış, çörək pulunu isə mirzəlik etməklə qazanırmış. Arvadını və oğlunu taleyin hökmünə buraxıb bir neçə illiyə yoxa çıxmış, bu yaxınlarda geri qayıdıb özünü təzə peyğəmbər olmasa da, peyğəmbərlərin nümayəndəsi elan etmişdir. Bunun sübutu kimi üzərində "Şahənşah"ın adı yazılmış möhürünü də ortaya qoyur (sonradan aparılmış təhqiqatlardan bəlli olur ki, bu möhürü bir yerli sənətkar hazırlayıbmış). Moizənin məğzi tərki-dünya xarakterli olub, tezliklə dünyanın dağılacağı və qiyamət gününün başlayacağı xəbərinin verilməsindən ibarət idi. Həm də bunların mütləq Ordubad ətrafında və ən yaxın zamanlarda baş verəcəyi iddia edilirdi. Onun moizələrindən çaşqınlığa düşən sakinlər silahlanmağa başlayırlar ki, bu da mahal naibi mayor Şıxəli bəyi və polis pristavı ştabs-kapitan Voronçenkonu narahat etməyə bilməzdi. Onlar isə, öz növbələrində, "erməni vilayəti"ni idarə edən general-mayor knyaz V.O.Behbudova mümkün ixtişaşlar barəsində raportlar yazırlar. Ordubad idarəçiliyi xalq həyəcanlarının mərkəzində olmaq və bunun qarşısında aciz qalmaqdan açıq-aşkar vahiməyə düşür. Çünki onun sərəncamında cəmisi 120 nəfərlik 4-cü gürcü xətt (sərhəd) batalyonu və gömrük-karantin xidməti göstərən kazak bölüyü var idi. Qiyam baş verəcəyi halda qiyamət qorxusundan lərzəyə gəlmiş çoxminli kütləyə qarşı durmaq üçün bunlar həddən ziyadə az idi.

General Behbudov Əlahiddə Qafqaz Korpusunun komandanı baron Q.V.Rozenə, o isə öz növbəsində, Sankt-Peterburqa gözlənilən təhlükələrə dair raportlar yazır. Vəziyyəti xüsusilə qəlizləşdirən məsələ bunda idi ki, bir neçə aydan sonra, 1837-ci ilin sentyabrında imperator I Nikolayın Qafqaza səfəri gözlənilirdi. Amma son nəticədə bəlli oldu ki, hərbi-yerli administrasiyanın həyəcanları əbəs imiş. Belə ki, baron Rozenin hərbi nazir qraf Z.Q.Çernışevin adına yollladığı 19 iyul 1837-ci il tarixli məxfi raportundan aydın olur ki, Naxçıvanın naibi, polkovnik Ehsan xanın qardaşı mayor Fərəc ağanın rəhbərliyi altında Kəngərli süvarisinin sotnyası Ordubada gəlmiş, heç bir əsgər, heç bir ermənidən istifadə etmədən Molla Məhəmmədsadıxı onu müqəddəs sayan bir neçə min müsəlmanın gözləri qarşısında həbs etmiş və gətirib İrəvana təhvil vermişdir. Zaqafqaziya tarixinin bu epizodu Kəngərliləri və onların yerli xalqlar arasında tutduqları mövqeyi hər şeydən daha yaxşı səciyyələndirir. Hamıya bəlli oldu ki, onlar yüz nəfərlə bir neçə minə qarşı çıxmaq, ya əmri icra etmək, ya da ölmək qabiliyyətinə malikdirlər. Buna görə də onların əleyhdarları öz başçılarının həbsinə qarşı belə çıxa bilməmişlər. Molla Məhəmmədsadığın özünə gəlincə isə o, Qafqaza inspeksiya məqsədli səfəri ərəfəsində imperator I Nikolayın 17 avqust 1837-ci il tarixli sərəncamı ilə yalançı "peyğəmbər" kimi tutulub həmişəlik olaraq Dinaburq qalasındakı məhbuslar rotasına göndərilir.

Bu Ordubad hadisəsi haqqında xəbərlər hərbi parad və baxışlara, ümumiyyətlə, az maraq göstərən imperator I Nikolayda Qafqaza səfəri zamanı məhz Kəngərli süvarisinə (Rusiya imperiyasının kargüzarlığında Kəngərlilərin hərbi birləşməsi rəsmən belə adlanırdı) sıra baxışı keçirməyə maraq oyatmışdı. **Bu baxış 5 oktyabr 1837-ci il tarixdə baş tutur və hökmdarda, habelə onun əyanlarında ən xoş təəssüratlar yaradır. Bu baxış XIX əsr Rusiya hərb tarixi üçün unikal hadisə idi. Nə ona qədər, nə də ondan sonra Rusiya hökmdarları bu yüzillikdə bir daha "yadelli" hərbi hissələrinin onların yaşayış yerindəcə keçirilən paradını qəbul etməmişlər. Kəngərli süvarisinin belə bir şərəfə layiq görülməsi faktı onu sübut edirdi ki, Qafqazdakı Rusiya idarəçiliyi bu hərbi birləşməyə xüsusi ümidlər bəsləyir.** Amma I Nikolayın Kəngərlilərə hökmdar iltifatının o biri tərəfi də vardı. Qafqaz idarəçiliyi buranın digər əhalisi arasında narazılıq salmadan Kəngərliləri fərqləndirməklə mükafatlandırmaq məsələsi sual olaraq qalırdı. Qafqazın baş hakimi, piyada qoşunları generalı qraf Y.A.Qolovin, hərbi nazir qraf Z.Q.Çernışev, o dövrdə Rusiyada Qafqaz üzrə başlıca mütəxəssis sayılan, Polşa çarlığında imperiya canisini işləyən general-feldmarşal qraf İ.F.Paskeviç-İrəvanski və İmperiya Dəftərxanası arasında bu mövzuda fəal və uzunmüddətli bürokratik yazışmalar aparılmışdı. Yazışmalar bir neçə il davam etmiş və 12 fevral 1840-cı il tarixdə hərbi nazirin Qafqazdakı baş hakiminin adına yazdığı sirkulyar məktubla yekunlaşmışdır. Bu məktub nəinki dəftərxana bəlağəti nümunəsi, həm də Qafqazdakı vəziyyətə dair Rusiya hakimiyyətinin düşünülmüş yanaşması nümunəsi sayıla bilər. Fars hökuməti yanında yalnız hərbi mükəlləfiyyətli və Naxçıvan naibi yanında qulluqda olan Kəngərlilər tayfası heç zaman ticarətlə və ya sənaye ilə məşğul olmamışlar. Onlar azacıq heyvandarlıq və ondan da az səviyyədə əkinçiliklə məşğul olmuşlar. **Fars hökuməti yanında hər cür vergilərdən azad edilmiş Kəngərlilərin sərhədlərin keşiyini çəkmək və naib yanında (onlara naib tərəfindən ümumən toplanan torpaq məhsullarından bir qədər yardım da edilirdi) polis qulluğunu icra etmək üçün ən azı 200 atlı döyüşçünü hər an hazır vəziyyətdə saxlamaq borcu idi. Rusiyaya birləşdirildikdən sonra Kəngərlilər həmin hüquqlarını qoruyaraq indi də ən azı 200 atlı döyüşçü saxlamaqda davam edirlər.** Həmin atlıların az bir hissəsi naib Ehsan xanın fəxri mühafizəsini təşkil edib, yerli qulluq vəzifələrini icra edirdi, digərlərindən isə Araz boyunca keşik çəkməklə düşmənlərə qarşı ekspedisiyalarda və sairədə istifadə olunurdu.

Bu səbəblər üzündən knyaz Varşavski (yəni İ.F.Paskeviç-İrəvanski – O.K.) belə hesab edir ki, Kəngərliləri "erməni vilayəti"nin digər sakinləri ilə müqayisə etmək olmaz. Baxmayaraq ki, həmin əsgərlər də sərhədlərin keşiyini çəkirlər, lakin Kəngərlilər kimi kuryerləri və nəqliyyatı İrana müşayiət etmirlər, İranın sərhəd rəislərinə çatacaq sənədlər onlarla göndərilmir. Özlərinin **çoxdankı hərbi vərdişlərinə uyğun olaraq, Kəngərlilər həmişə silahlanmağa hazır olurlar, lakin belə həyat tərzi təbii olaraq onları əkinçilikdən uzaq salır** və "erməni vilayəti"nin digər sakinləri kimi təbiətin məhsullarından yararlanmağa imkan vermir.

Buna görə də, **feldmarşalın fikrincə, Kəngərliləri Zaqafqaziya əyalətlərindəki maaflarla müqayisə etmək lazımdır. Çünki maaflar da ilk çağırışda qulluğa əldə silah və atla gəlməli idilər.** Həmin vəzifələri indiyədək Kəngərlilər də icra edirlər. Lakin bu səbəbdən maaflar bütün vergilərdən azad edilsələr də, eyni şeyləri hökumətə sadiqlikləri ilə tanınan və həmişə igidlik və çalışqanlıqları ilə seçilən Kəngərlilərə rəva görməmək ədalətsizlik olardı. Knyaz Varşavski əlavə edir ki, maaflar, İran kürdləri, Kəngərlilər və Zaqafqaziyadakı bəzi köçəri tayfalar, ümumiyyətlə, bizim kazaklar kimi qeyri-nizami süvari təşkil edə bilərdilər və bu, çox faydalı olardı: ilk olaraq onlardan düzgün məlumatlar toplamaq və alayları formalaşdırmaq lazımdır. Bu alaylar həqiqi qulluq zamanı məvacib, azuqə və mal yemindən başqa, hökumətdən hər hansı yardım istəmədən öz silahı və atı ilə qulluğa çıxacaqlar. Bu tədbir təsdiqləndikdən sonra onu digər sakinlərə də şamil etmək olar.

Əlahəzrət İmperator feldmarşal knyaz Varşavskinin rəyini bütünlüklə bəyənərək belə buyurdu ki:

*1) Kəngərlilərə 1836-cı ildən, yəni bu mükəlləfiyyətə cəlbedilmə dayandırıldıqdan sonra qalan vergi borcları bağışlanılsın.*

*2) Onlar gələcəkdə pul vergisinin ödənilməsindən azad edilsinlər, lakin taxıl vergisi əvvəlki əsaslarla ödənilsin.*

*3) Bunun müqabilində sərhəd keşiyini çəkmək, naib yanında qulluq etmək, kuryer göndərilmək, düşmən əleyhinə hərəkətlərə cəlb edilmək və döyüşən orduya bir neçə atlı döyüşçü verilməsi üçün zəruri sayda süvari saxlamaq onların vəzifəsi hesab edilsin.*

*Ardı 3-cü səhifədə*

*4) Feldmarşalın maaflar, Kəngərlilər və Zaqafqaziyadakı bəzi köçəri tayfalardan ibarət qeyri-nizami süvari dəstəsi yaradılmasına dair təklifi zaman və şərait imkan verdikdə tədricən icra etmək üçün nəzərə alınsın.*

Sitat gətirilən bu sənəd o zamankı Azərbaycanın digər əhalisi ilə müqayisədə Kəngərlilərin imperiya yurisdiksiyasına keçdikdən sonra ilk 10-15 il ərzində onun tərkibindəki sosial-iqtisadi vəziyyətinin yığcam və lakonik xarakteristikasını özündə əks etdirir. Əvvəllər Rusiya administrasiyası tayfanın bütün potensiyalı və resurslarını qulluqdankənar bütün pul və natural mükəlləfiyyətləri ödətməklə yanaşı, dövlət-hərbi, feldyeger kimi qulluq növləri, diplomatik ehtiyaclı kuryer və yerli polis, sərhəd-gömrük, kordon-sanitar xidmətləri üçün onların silahlı dəstə və atlılarını kifayət qədər saymazcasına istismar etməyə çalışırdı. **Belə vəziyyət isə Kəngərlilərin həyat tərzlərinin əsaslarını dağıdırdı, çünki onlar əvvəlki uğur və səmərə ilə hakimiyyət qarşısındakı vəzifələrini, habelə pul vergilərini obyektiv olaraq icra edə bilmirdilər.** Buna görə Qafqazdakı Rusiya idarəçiliyi tayfadan vergi toplanmasını dayandırdı, lakin ödənilməmiş məbləği borc kimi yazmağa başladı. Lakin 1837-ci ildə yalançı "peyğəmbər" Məhəmmədsadıxla bağlı hadisə **Rusiya əsgərləri və kazaklarının yararlı olmadığı hallarda yerli şəraitə uyğun spesifik məsələləri səmərəli şəkildə həll etməyə qadir olan yerli, "yadelli" hərbi qüvvənin imperiya idarəçiliyinin sərəncamında olmasının son dərəcədə zəruriliyini nümayiş etdirdi.** Buna görə də Kəngərlilər sosial-əmlak əlaməti üzrə korporativ imtiyazlar əldə etməyə başladılar ki, bu da yerdə qalan digər əhalidə yox idi. **Tayfa atlıları yarımimtiyazlı maaflar təbəqəsinə bərabər tutulur, qalan Kəngərlilər isə pul vergisini ödəməkdən azad edilirlər.** Bu həm də Rusiya imperiyasındakı kazakların statusundan azacıq fərqlənən maafların sosial statusunun bütün Kəngərlilərə verilməsi yolunda atılan növbəti addım idi.

Təəssüf ki, XIX əsrin ikinci qərinəsində Qafqazdakı Rusiya idarəçiliyinin hərəkətləri öz ardıcıllığı ilə fərqlənmirdi. Bunun başlıca səbəbini isə baş hakimlərin bir-birini tez-tez əvəzləməsində axtarmaq lazımdır. Bu, "zaman və şərait imkan verdikcə" ideyasının – Kəngərlilərin kazaklara bərabər tutulması ideyasının tədricən reallaşdırılması ilə bağlı idi: bütöv bir onillik ərzində – 1840-cı ildən 1850-ci ilədək məsələ yerindən tərpənmədi. Bu illər ərzində **Kəngərlilər kifayət qədər ikili vəziyyətdə qalmalı oldular: bir tərəfdən şəxsən hərbi qulluq mükəlləfiyyəti daşıyırdılar, buna görə də hərbi komandanlığa tabe idilər. Lakin eyni zamanda natural vergilər də ödəyirdilər ki, bu da yerli mülki hakimiyyətin kompetensiyasına şamil edilirdi.** Bürokratik uyğunsuzluq şəraitində mövcud olduğu kimi, nəticədə, idarəçiliyin hər iki qolu çətinlik çəkirdi: Kəngərlilər həm qulluğa laqeyd yanaşır, həm də vergilərini ödəməkdən yayınırdılar. Bütün bunlar Naxçıvan, Tiflis və Sankt-Peterburq arasında bir neçə il davam edən yazışmalara səbəb olmuşdu. 1844-cü ildə Qafqaz canişini təyin edilən qraf M.S.Vorontsovun bu tayfanın hüquqi vəziyyətinin qəti şəkildə müəyyənləşdirilməsinə şəxsən baş qoşmasına qədər məsələ açıq qalmaqda idi. Bunun üçün bəhanə rolunu bilavasitə Naxçıvanda yaşayan 309 ailənin tayfa tərkibindən çıxması və şəhər əhli zümrəsinə yazılması cəhdi oldu. Bunu etmək sadə məsələ deyildi, çünki kişilər Rusiya imperiyasının hərbi idarəsinin tabeliyində idilər və onları şəhər əhli təbəqəsinə yalnız imperator keçirə bilərdi. Təbii ki, Kəngərlilərin qalan nümayəndələri öz tayfadaşlarının belə qərarına mane olmaq əzmində idilər, çünki onlar öz azadlıq və imtiyazlarını itirmək istəmirdilər. Nəticədə, imperiyanın administrativ maşını bütövlükdə hərəkətə keçdi. Əvvəlcə Peterburqdan Kəngərlilərin "qopub ayrılmış" ailələri, sonra isə bütün tayfa haqqında məlumatlar tələb olundu, daha sonra isə Zaqafqaziyada dövlətə şəxsi hərbi qulluq mükəlləfiyyəti olan bütün xalq və zümrələr haqqında məlumatlar istənildi. Bütün bu məlumatlar toplanıb qurtardıqdan sonra qraf Vorontsov onlardan bir məruzə hazırladı və 30 aprel 1850-ci il tarixdə imperator I Nikolaya təqdim etdi:

"...Bu diyardakı baş idarədən bu məqsədlə göndərilmiş şəxslər tərəfindən dəfələrlə keçirilmiş baxışlardan və yerli rəislərin məlumatlarından aydın olur ki, bir hissəsi hərbi, bir hissəsi isə mülki idarəyə tabe olan bu tayfanın indiki vəziyyəti böyük narahatlığa səbəb olur və bu da həmin cəmiyyətin qulluğundan hər hansı bir mənfəət əldə etməyə maneçilik törədir. Çünki qulluğa yollama, cəmiyyətin yaxşı silahlanmış və sağlam atları olan atlıları ayırıb göndərməsi tələbi, nəhayət, daxili idarə və təşkiletmə əşyaları – bütün bunların hamısı mülki rəhbərliyə aiddir. Kəngərlilərin hərbi xidmətinin qüsursuzluğu da məhz bunlardan asılıdır. İki idarəyə tabelilik ucbatından Kəngərlilər hər hansı nəzarətdən kənarda qalır və qulluğa hazırlıqdakı və xidmətin özündəki bütün nizamsızlıqlar müxtəlif rəhbərliklər arasında əhəmiyyətsiz yazışmalara səbəb olur. Kordon xidmətində az xeyir verən Kəngərlilər həm də poseleniye əhli kimi də faydasızdırlar, çünki müxtəlif vergi və mükəlləfiyyətlərdən azad olunublar.

Bütün bu düşüncələrə görə, **hökumət üçün əhəmiyyətli və hətta Kəngərli cəmiyyətinin özü üçün də faydalı olardı ki, onlar hərbi mükəlləfiyyətdən azad edilsinlər, dövlət poseleniye əhlinə çevrilsinlər və onlar şəhər əhalisi ilə, kəndlilər isə Naxçıvan qəzasının əhalisi ilə eyni səviyyədə vergilərə cəlb edilsinlər.** Onları, ümumiyyətlə, sərhəd xəttində hərbi qulluğa cəlb etmək üçün yadellilərin karantin-gömrük idarəsində atlı qoruqçular qismində qulluqetmə nümunəsində olduğu kimi aralarından könüllülərin muzdla tutulmasına icazə verilsin: bu şəkildə qulluq faydalı olardı və onlar arasında bəhsləşmə yaradardı.

Qafqaz Diyarı Baş İdarəsinin Şurası bütün bu işləri nəzərdən keçirərək və Kəngərlilərin vergi zümrəsinə şamil edilməsinin zəruriliyini etiraf edərək, bunu da əlavə edir ki, Kəngərliləri vergilərə cəlb etməklə daxil olacaq məbləğ hesabına kordon xəttinə azad keşikçilər tutulmalı, onlar habelə yem və ərzaq paylarına görə pullarla təmin olunmalıdırlar. Bu azad keşikçilər İranla bizim əlaqələrimiz üzrə diplomatik məmur və xidmətçiləri müşayiət etmək nəzərdə tutulur ki, indi həmin vəzifə Kəngərlilərin üzərindədir...".

Qraf M.S.Vorontsovun məruzəsi baxılmaq üçün Qafqaz Komitəsinə – Qafqazın idarəedilməsi üzrə idarələrarası Şuraya daxil oldu və onun 31 oktyabr 1850-ci il tarixli qərarı ilə müəyyən əlavə qeydlərlə təsdiq edildi: "Kəngərlilərin istəklərinə uyğun olaraq, şəhərli və yaxud kəndli təbəqəsinə şamil edilməklə dövlət vergi vəziyyətinə keçirilməsi" elə olmalıdır ki, "Kəngərlilərin cəlb edildikləri vergi toplantıları nəinki haliyədə mövcud olan xidmət üçün müvafiq sayda adamların saxlanılması məsrəflərini, habelə dövlət əmlakının idarəedilməsi məsrəflərinə müraciət etmədən onların müəyyənləşdirəcək yerli idarəçilik üzrə kənd idarəetmə xərclərini də ödəyə bilsin".

İlk baxışda, məruzə Kəngərlilərin korporativ imtiyazlarına birdəfəlik son qoyur: nə vaxtsa administrativ cəhətdən xüsusiləşmiş tayfanın nümayəndələri "istəklərinə uyğun" olaraq, məmur tərəfindən başa düşülən anlamda şəhər və ya kənd "əhli" dərəcəsinə keçirilir. Lakin bu sənəd həm də bürokrativ "əngəllərlə" dolu idi: bu sənədin özgə sətiraltı mənası vardır ki, bu da sadələvh oxucuya göründüyündən tamamilə fərqli bir şey idi. Məruzənin məğzi ondadır ki, Kəngərlilərdən toplanılacaq vergilər iki növ dövlət məsrəflərini – "haliyədə mövcud olan xidmət üçün müvafiq sayda adamların saxlanılması məsrəfləri" və "onların kənd idarəetmə xərcləri"ni nəzərdə tuturdu. Əgər qanunun bu normasını bürokratik dildən rus dilinə çevirsək, belə alınar ki, **200 atlı döyüşçü, habelə idarəçiliyinin verildikləri yerli administrasiya Kəngərlilərin hesabına saxlanılmalıdır**. Tayfanın hərbi birləşməsinin silahlanması, təchizat və atlarla təminatı vəzifələrini onlar 1828-ci ildən, yəni Rusiyanın yurisdiksiyasına keçirdikləri vaxtdan icra edirdilər. Kəngərlilərin kənd idarəçiliyi isə başqalarından deyil, elə həmin 200 atlı sırasına daxil olan bəy və ağalardan təşkil olunurdu. 1850-ci ildə edilən yeganə əhəmiyyətli dəyişiklik onda idi ki, **əvvəllər hərbi idarəyə tabe olan Kəngərli süvarisi mülki idarəyə aid qeyri-müəyyən və çox zaman da anlaşılmaz olan hərbi dövrün qeyri-nizami süvarisinin əvvəlki funksiyaları saxlanılmaqla,** Rusiya imperiyasının Daxili İşlər Nazirliyi və Dövlət Əmlak Nazirliyinin səlahiyyətlərinə şamil edilən vəzifələri – Naxçıvan qəzasında polis, sərhəd və gömrük-karantin xidməti kimi tamamilə müəyyən və köhnə – keçmiş vəzifələri də yerinə yetirməyə başlayırdı. **Əsl həqiqətdə Kəngərlilər Naxçıvan qəzasının bürokratiyası çərçivəsində administrativ və fiskal muxtariyyət alıb, mövqeyinə görə sərhədyanı qəzada polis və digər "güc" funksiyalarını əllərində cəmləşdirirdilər.** Bununla da, onlar İrəvandakı quberniya hakimiyyətindən müəyyən mənada uzaqlaşırdılar. Belə vəziyyət isə Kəngərlilərin Qafqazdakı Rusiya idarəçiliyinə yüksək dərəcədə loyallığını unutmadıqlarından onları tamamilə təmin edirdi. Lakin mülki idarənin tabeliyinə keçirilmə heç də o demək deyildi ki, hərb dövründə Kəngərli süvarisi hərbi əməliyyatların səhnəsinə çağırıla bilməz. 1853-1856-cı illər Şərq (Krım) müharibəsinin və Zaqafqaziyada hərbi əməliyyatların başlanılması Əlahiddə Qafqaz Korpusu qoşunlarının həm də yerli milis və qeyri-nizami birləşmələr hesabına gücləndirilməsini tələb edirdi. Bunun üçün qərara alındı ki, müharibə dövründə yerli sakinlərdən könüllülərin sotnyaları təşkil edilsin, hər quberniyada 1828-1829-cu illər rus-türk müharibələrində azərbaycanlılardan təşkil edilmiş nümunələr üzrə tərkibində 5 sotnya olan süvari-müsəlman alayına daxil edilsin. Sənədə görə, İrəvan quberniyasında könüllülər alayı aşağıdakı qaydada təşkil edilirdi:

"Ən yaxşısı budur ki, alay Kəngərlilərdən ibarət üç sotnyadan və İrəvan qəzasının köçəri sakinlərindən ibarət iki sotnyadan formalaşdırılsın. Bu zaman sonuncu iki sotnyaya digər qəzalardan da könüllülər daxil ola bilsinlər və bu iki hissənin hər birinin öz rəisi: birincininki Naxçıvan xanlarından, sonuncununku isə köçərilərin bəylərindən olsun".

Nəticədə, alay elə beləcə də formalaşdırıldı. Onun tərkibində general-leytenant baron K.K.Vrangelin İrəvan dəstəsində İsmayıl xan Naxçıvanskinin (yuxarıda adıçəkilən Ehsan xanın oğludur) başçılığı altında Kəngərlilərin atlı döyüşçüləri də var idi.

Beləliklə, 1850-ci ildə mülki idarə çərçivəsində administrativ cəhətdən Kəngərlilərin xüsusiləşməsi hərbi dövrdə onları hərbi qulluq vəzifələrinin yerinə yetirilməsi yükündən azad etmədiyindən verilən muxtariyyət məhdud idi. Baxmayaraq ki, bu, onların dinc dövr həyatında çox əhəmiyyətli rol oynayırdı.

## Gözlənilməyən qar bolluq, yoxsa qıtlıq gətirəcək?

### Yaz bərəkəti qardan alar



***Hər fəslin özünəməxsus gözəlliyi var: ağaclar çiçəkləyəndə bahar daha gözəl görünür; meyvələr yetişəndə yayın gözəllikləri hiss olunur; ağacların yarpaqları qızılı rəngə boyananda payızın sərin nəfəsi duyulur; qışın gözəlliyi isə qarın yağmasındadır. Ancaq bəzən təbiətin elə şıltaqlıqları da olur ki, yaz fəslində belə, qarın yağması ilə rastlaşa bilirsən.***

Bəli, naxçıvanlılar yazın ab-havasını, təravətli qoxusunu duyduğu bir vaxtda təbiətin həmin şıltaqlığı ilə qarşılaşdılar. Düzdür, yay aylarında belə, muxtar respublikanın ucqar dağ kəndlərinə qar yağdığı müşahidə olunub, ancaq bu dəfə Naxçıvan şəhəri də daxil olmaqla martın son günlərində muxtar respublikamız yenidən qar yağışı ilə qarşılaşdı. Belə ki, iki gün ərzində muxtar respublikanın müxtəlif bölgələrinə qar yağıb, hər tərəf ağ örpəyə bürünüb. İndi doğma diyarımızın bir tərəfində yaşıllıq və çiçəklik, digər tərəfində isə qar gözəl mənzərəyə səbəb olub. Kimisi onu ruzi, bərəkət adlandırır, "öz yerinə yağıb" deyir, kimisi isə onu bolluq rəmzi kimi qiymətləndirir. Deyirlər ki, sabahın bol məhsulunun təməli də bu qarla qoyulur. Onun atmosferə təmiz hava gətirdiyini düşünənlər də çoxdur.

Ana təbiət artıq bizi ağır sınağa çəkə bilmir. Çünki hələ payız mövsümündən başlanılmış qışa hazırlıq işləri labüd ola biləcək çətinlikləri yaz fəsli olmasına baxmayaraq, aradan qaldırmağa hesablanıb. Əvvəlcə yağıntı ilə bağlı rəsmi məlumatlara nəzər salaq. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, muxtar respublikada dəyişkən hava şəraiti ilə bağlı məlumatlar martın 28-də müəyyən edilib və bununla bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarına xəbərdarlıqlar göndərilib. Martın 29-da nazirliyin Hidrometeorologiya İdarəsinin növbəti gün üçün verdiyi məlumatlar öz təsdiqini tapıb, martın 30-da hava şəraiti qısa müddətdə kəskinləşərək temperatur paytaxt Naxçıvan şəhərində gündüz 4, gecə isə -4 dərəcəyə, küləyin sürəti 12 metr/saniyəyə çatıb, yağıntının miqdarı 6 millimetrə, yağan qarın hündürlüyü isə 10 santimetrə qədər yüksəlib. Dəyişən hava şəraiti muxtar respublikamızın müxtəlif bölgələrinə də təsirsiz ötüşməyib, qarın hündürlüyü Şahbuz rayonunda 6 santimetr, Biçənək kəndi ərazisində 8 santimetr, Sədərək rayonunda 2 santimetr, Şərur rayonunda 3 santimetr, Culfa rayonunda 8 santimetr, Ordubad rayonunda 21 santimetr, rayonun dəniz səviyyəsindən 3000 metr yüksəklikdə yerləşən ərazilərində isə 30 santimetrə qədər olub. Muxtar respublikaya martın 29-30-da düşən yağıntının aylıq miqdarına nəzər salsaq, Ordubad rayonuna düşən yağıntı aylıq normanın 80, Arazboyu düzənlik ərazilərində 50-60, dağlıq rayonlarda 60-70, yüksək dağlıq ərazilərdə isə 80 faizinə bərabər olub.



Bu bir həqiqətdir ki, yaz bərəkəti, bolluğu qışın qarındadır. Bəs gözlənilməyən bu qar kənd təsərrüfatına necə təsir edəcək? Bu qar nə gətirəcək: bolluq, yoxsa qıtlıq? Əvvəlcə onu qeyd edək ki, quru-kontinental iqlimə malik muxtar respublikaya yağan yağıntının aylıq normanın ən az 50 faizindən yuxarı təşkil etməsi əkin sahələri üçün faydalıdır. Məlumdur ki, hər yaz mövsümünün bu çağında bir çox kənd təsərrüfatı bitkiləri, o cümlədən taxıl, çoxillik yem, həmçinin dəmyə sahələrdə əkilmiş müxtəlif bitkilərin suya tələbatı olur. Deməli, yağan qar bu su ehtiyacını ödəməklə bərabər, həm də salınmış müxtəlif meyvə ağaclarının, əkin və otlaq sahələrinin inkişafı üçün əlverişli şərait yaradır. Bu amil cari ildə yaxşı məhsul əldə edilməsi üçün mühüm şərtlərdəndir. Məsələnin digər tərəfi isə bir çoxlarının da düşündüyü kimi, gözlənilməz qarın təsərrüfata mənfi fəsadları ilə bağlıdır. Ancaq bu sahədə də pessimist olmağa dəyməz. Birinci ona görə ki, muxtar respublikamızda ilin bu vədəsində yalnız çox az sayda meyvə ağacları (ərik və göycə) çiçək açmağa başlayır. Həm də bu meyvə ağaclarının çiçək tumurcuqlarının məhv olması ilə bağlı fikir yürütmək də doğru olmaz. Hər halda müvafiq qurumların rəsmi açıqlamalarından sonra bu haqda ümumi bir fikrə gəlmək olar. Digər tərəfdən isə hətta bir-iki növdə meyvə ağacına dəyən zərəri ümumi kənd təsərrüfatı əkinlərinin zərəri kimi qəbul etmək düzgün deyil. Yağıntının digər əkin sahələrinə, eyni zamanda Ana Təbiətin özünə olan əhəmiyyətini düşünsək, qarşımızdakı mənzərənin hər kəs üçün faydalı olacağını fikirləşmək lazımdır. Necə deyərlər, qar öz yerinə yağıb. Ruzili, bərəkətli olsun!

**Sara ƏZİMOVA**

## Yeni yaşıllıqlar salınmışdır

***Martın 29-da keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu. Həmin gün Uzunoba Su Anbarı yaxınlığındakı yeni salınmış 2 hektarlıq meyvə bağında 1400 ədəd meyvə ağacı əkilmiş, Naxçıvan-Sədərək və Naxçıvan-Batabat yollarının sağ və sol hissələrindəki yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.***

Şərur rayonunun sakinləri də, əvvəlki iməciliklərdə olduğu kimi, əzmkarlıq nümayiş etdirmişlər. Dizə-Gümüşlü yolunun kənarlarında və Aşağı Yaycı kəndində yeni salınmış 2,5 hektarlıq bağda 1600 ədəd meyvə ağacı, 300 ədəd həmişəyaşıl ağac, 290 ədəd gül kolu, Yuxarı Daşarx kəndi ərazisində yol kənarlarına bərpa məqsədilə 1500 ədəd meşə ağacı, Dərəkənd, Siyaqut, Xanlıqlar və Düdəngə kəndləri ərazisində yol kənarlarına 1000 ədəd meyvə ağacı əkilmişdir.

Həmin gün Babək rayonunun ərazisində də fəallıq müşahidə edilmişdir. Rayon sakinləri Naxçıvan-Ordubad yolunun Qoşadizə kəndindən keçən hissəsində yol kənarlarına bərpa məqsədilə 300 ədəd meşə, Naxçıvan-Batabat yolunun Vayxır kəndindən keçən hissəsində 550 ədəd çinar ağacları əkmiş, yaşıllıqlar aqrotexniki qulluq göstərilərək suvarılmışdır.

Ordubadda da iməciliklər mütəşəkkilliklə keçirilmişdir. Naxçıvan-Ordubad yolunun Qoşadizə kəndindən keçən hissəsində yeni salınmış 1 hektarlıq bağda 400, Dizə kəndində yeni salınmış 0,4 hektarlıq bağda 150, Üstüpu kəndində 500, Çənnəb kəndində 300, Vələver kəndində 400, Düylün kəndində 150 ədəd meyvə ağacları əkilmişdir. Qazi massivində isə bərpa məqsədilə 350 ədəd meyvə ağacı əkilmişdir. Rayonun Tivi, Bist və Nəsirvaz kəndlərində çay kənarlarına 600 ədəd meşə ağacı əkilmişdir.

Culfa rayonunda da iməcilik zamanı yeni tinglərin əkilməsi işləri həyata keçirilmişdir. Naxçıvan-Ordubad yolunun kənarlarında salınmış yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, alaq otları təmizlənmiş, ağacların gövdələri ağardılaraq suvarılmış, bu ərazilərdə bərpa məqsədilə 750 ədəd meyvə tingi əkilmişdir.

Naxçıvan-Sədərək magistral yolunun Kəngərli rayonu ərazisindən keçən hissəsində yolun kənarlarındakı bağların genişləndirilməsi diqqət mərkəzində saxlanılmışdır. Kəngərlililər bu ərazilərdə bərpa məqsədilə 400 ədəd meyvə ağacı, rayon mərkəzindəki park və xiyabanlarda 100 ədəd həmişəyaşıl ağac, 500 ədəd gül kolu əkmişlər.

Şahbuzlular Daylaqlı kəndi ərazisində yeni salınmış 1,2 hektarlıq meyvə bağında 869 ədəd, kəndlərdə 412 ədəd müxtəlif meyvə ağacı, Şahbuz şəhərinin park və xiyabanlarında 105 ədəd həmişəyaşıl ağac əkmişlər.

Sədərək rayonunun sakinləri Qaraağac kəndində yeni salınmış bağda 1700 ədəd meyvə ağacı əkmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

**Xəbərlər şöbəsi**

***Futbol üzrə Azərbaycan I divizionunun lideri olan "Araz-Naxçıvan" futbol komandası əldə etdiyi nəticələrlə Premyer-Liqaya doğru əmin addımlarla irəliləməkdədir. Ən yaxın izləyicisindən 11 xal irəlidə olan komandamızın elə həmin rəqibə qarşı keçirəcəyi matç maraqla gözlənilirdi. Çünki əldə ediləcək hər hansı uğurlu nəticə çempionluq yolunda mühüm rol oynayacaqdı. Digər tərəfdən, "Qaradağ Lökbatan"ın da birincilik uğrunda mübarizə aparması görüşə marağı daha da artırmışdı.***

## "Araz-Naxçıvan" liderliyini davam etdirir



***Stadion niyə dəyişdirildi?***

"Araz-Naxçıvan" futbol komandası Bakıda keçirilən görüşdə bir çox təcrübəli futbolçusuna yer verməmişdi. Belə ki, nisbətən yüngül zədəsi olan Akif Tağıyev Naxçıvanda qalmış, Əlimirzə Daşzərini və İrfan Hüseynov isə 18-liyə salınmamışdı. Əvəzində isə komandanın baş məşqçisi Əsgər Abdullayev müdafiə xəttində Mikayıl-Ruslan-Tural-Ruslan kvartetinə şans vermişdi. Elgiz Kərimlinin önündə oynayan Eşqin Quliyev və Cavid Həsənov isə hücumların qurulmasında bilavasitə rol oynayırdı. David Canıyev isə hücumun sivri ucunda cinahlardan hücuma qoşulan Əziz Hüseynov və Elmin Çobanovdan ideal ötürmələr gözləyirdi.

Rəqib son 3 oyunda xal itirməklə artıq liderdən xeyli uzaqlaşdığını yaxşı anlayırdı. Odur ki, doğma arenada keçiriləcək matçda onlar mütləq qələbə qazanaraq liderdən uzaqlaşmamağa, həmçinin ikincilik uğrunda mübarizədən kənar qalmamağa çalışırdı. Belə olan halda görüşün əhəmiyyəti xeyli artmışdı.

Oyundan öncə baş verənlər isə muxtar respublika klubunun azarkeşləri tərəfindən heç də yaxşı qarşılanmadı. İlk olaraq, görüşün İsmət Qayıbov adına stadionda keçiriləcəyi dəqiqləşsə də, qarşılaşmaya bir gün qalmış matçın oynanılacağı yer dəyişdirildi və Lökbatan Qəsəbə Olimpiya Kompleksinin stadionu olaraq müəyyənləşdirildi. Təbii ki, bu arenada ot örtüyünün bərbad vəziyyətdə olması futbolçuların oyununa təsirsiz ötüşmədi. Arenanın dəyişdirilməsinə isə rəqib komanda yanaşı, həm də qaydalara əməl etməyi qarşısına məqsəd qoymuşdan öncə bir qədər qonaq komandaya laqeyd yanaşması diqqətdən yayınmadı. Halbuki "Qaradağ Lökbatan" futbol komandası çempionatın birinci hissəsində muxtar respublikaya səfər edərkən bu cür halla üzləşməmişdi.

***Hesaba alınmayan qol***

"Futbol, sadəcə, futbol demək deyil" devizini yaxşı anlayan və buna hər zaman riayət edən "Araz-Naxçıvan" futbol komandası bu görüşə qələbə əzmi ilə çıxmaqla yanaşı, həm də qaydalara əməl etməyi qarşısına məqsəd qoymuşdu. Çünki oyundan öncə baş məşqçi futbolçulara meydanda, sadəcə, top uğrunda mübarizə aparmağı tapşırmışdı.

Oyun komandamız üçün yaxşı başlamadı. İlk dəqiqələrdən hücuma atılan Lökbatan təmsilçisi küləyin də qapımız tərəfə əsməsindən istifadə edərək ilk 15 dəqiqədə 2 epizodda qapıçımız Emil Balayevin sayıqlığını yoxlamağa imkan tapdı. Kəşfiyyat xarakterli oyun 20 dəqiqədən sonra komandamızın üstünlüyü ilə davam etdi. Artıq topla daha çox oynamağa başlayan və rəqibi əks-hücumlarda yaxalayan qırmızı-ağlar David Canıyevlə qola çox yaxınlaşdılar. Sağ cinahdan edilən ötürməni qəbul edən D.Canıyev cərimə meydançasına daxil oldu. Lakin onun dönərək qapıya zərbəsi zəif alındı. İlk hissənin sonuna yaxın komandamız topu qapıdan keçirməyə nail oldu. Belə ki, cərimə zərbəsi zamanı Eşqin Quliyevin asması rəqib qapısı önündə təhlükə yaratdı. Hamıdan yüksəyə tullanan Mikayıl Rəhimov başla Elmin Çobanova ötürmə etdi. Sonuncuya isə yalnız toxunmaq qaldı. Lakin referi Rauf Cabbarov bu qolu qeydə almadı. Açıqlamasını isə qapıçıya toxunuş kimi əsaslandırdı. Halbuki oyunun təkrar videoyazısını izləyərkən belə bir toxunuşun olmadığının şahidi olduq.

İkinci hissə daha çox qarın yağması ilə yadda qaldı. Matçın artıq 50-ci dəqiqəsindən sonra futbolçular topla mübarizə aparmaqla yanaşı, həmçinin qarın da təsirindən özlərini ayaq üstə saxlamağa çalışırdılar. Bir epizodda rəqibin künc zərbəsindən sonra qapımıza hücumu təhlükəli alındı. Lakin Emil Balayevin mükəmməl reaksiyası torun silkələnməsinə mane oldu. Meydan sahiblərinin son 7 dəqiqədə kobud oyunu onların azlıqda qalması ilə nəticələndi. Belə ki, əks-hücüm zamanı Əziz Hüseynova qarşı Taleh Muradovun kobudluğu hakimin diqqətindən yayınmadı. İkinci sarı vərəqə ilə cəzalanan rəqib oyunçu komandasını azlıqda qoydu. Elə həmin epizodun davamında lökbatanlılar qapıları önündə təhlükəni son anda dəf edə bildilər. Davidin uzaqdan zərbəsini qapıçı qapı xəttindən çıxarmağa müvəffəq oldu. Az sonra D.Canıyev yenidən diqqət mərkəzinə düşdü. Bu dəfə sol cinahda topla təmin olunan hücumçumuz mükəmməl zərbə ilə azarkeşlərə həyəcanlı anlar yaşatdı. Rəqibin bundan sonra səylərinə baxmayaraq, hesab dəyişmədi və "Araz-Naxçıvan" cari mövsümdə üçüncü dəfə meydanı "sülh"lə tərk etdi. Bu heç-heçədən sonra qırmızı-ağlar 60 xalla liderliklərini davam etdirirlər və ən yaxın izləyicisini 9 xal qabaqlayırlar.

Qeyd edək ki, "Araz-Naxçıvan" növbəti oyununu məhz 9 xal qabaqladığı "Neftçala" futbol komandasına qarşı keçirəcək. Oyun aprelin 5-i Naxçıvan Muxtar Respublika Stadionunda oynanılacaq.

**✍ Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Əmək müqaviləsi nə vaxt qüvvəyə minir?*

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinə əsasən, əmək müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, o, tərəflərin imzaladığı gündən qüvvəyə minir. İşçi Əmək Məcəlləsinin tələbləri pozularaq, yazılı əmək müqaviləsi olmadan, lakin əvvəlcədən işəgötürənin razılığı ilə faktiki olaraq işə başlamışsa, həmin andan əmək müqaviləsi bağlanmış hesab olunur və bu halda ən geci üç gün müddətində yazılı əmək müqaviləsi tərtib edilməlidir. Əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsi***

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu

### *prokurorluğa işə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikası Prokurorluğu Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu orqanlarında işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 10 ştat vahidi üzrə müsabiqə elan edir.

Prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər aşağıda qeyd edilən sənədləri təqdim etməklə Naxçıvan Muxtar Respublikası Prokurorluğuna müraciət edə bilərlər:

*1. Müəyyən olunmuş formada ərizə*

*2. Şəxsiyyət vəsiqəsinin təsdiq olunmuş (notarial qaydada) surəti*

*3. Tərcümeyi-hal və kadrlar uçotuna dair anket (blanklar prokurorluqda verilir)*

*4. 3x4 və 4x6 santimetr ölçülərdə hər birindən 4 ədəd ağ fonda rəngli fotoşəkil*

*5. Ali təhsil barədə (hüquqşünaslıq ixtisası üzrə) diplomun və diploma əlavənin təsdiq olunmuş (notarial qaydada) surəti*

*6. Əmək kitabçasının təsdiq olunmuş (notarial qaydada və yaxud iş yeri üzrə) surəti*

*7. Yaşadığı ünvan üzrə poliklinikadan (forma № 86), Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserindən sağlamlıq və narkoloji qeydiyyatda olubolmadığı barədə arayışlar*

*8. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*

*9. Yaşadığı ünvan üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarında qeydiyyatda olması və həqiqi hərbi xidmət keçməsi barədə arayış, hərbi biletin əsli və notarial qaydada təsdiq olunmuş surəti.*

Sənədlər Naxçıvan şəhəri, Atatürk küçəsi 22-də yerləşən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında 2014-cü il aprel ayının 10-dan 2014-cü il iyun ayının 10-dək hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır.

Prokurorluğa işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən hər bir namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, prokuror və ya müstəntiq vəzifəsinə yararlılığı və layiqliyinin müəyyən edilməsi ilə tam aşkarlıq şəraitində, şəffaf üsullarla, beynəlxalq tələblərə uyğun keçirilən ixtisas imtahanları (test və yazılı imtahanlar) və müsahibədən ibarət müsabiqə təşkil ediləcək. Test imtahanı Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi ilə birgə keçiriləcəkdir. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri mükəmməl bilənlərə üstünlük veriləcəkdir.

Prokurorluğa işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən şəxslərin nəzərinə çatdırılır ki, onların ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diplomla təsdiq edilməli, onlar Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli və seçkilərdə iştirak etmək hüququna malik olmalıdırlar. Prokurorluğa 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, aşağıdakılar prokurorluğa işə qəbul edilmirlər:

*- ikili vətəndaşlığı olan şəxslər;*

*- digər dövlətlər qarşısında öhdəlikləri olanlar;*

*- din xadimləri;*

*- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən, fiziki və ya əqli qüsurlarına görə prokuror və ya prokurorluğun müstəntiqi vəzifələrini yerinə yetirməyə qadir olmayan şəxslər;*

*- alkoqolizm, narkomaniya, toksikomaniya, digər ağır xəstəliklərə tutulmuş şəxslər (bu barədə həkim rəyi olduqda);*

*- əvvəllər məhkum olunmuş və ya bəraətverici əsaslar olmadan barəsində cinayət işinin icraatına xitam verilmiş şəxslər;*

*- əvvəllər yol verdiyi kobud nöqsanlara və ya prokuror və müstəntiq adı ilə bir araya sığmayan hərəkətlərə görə vəzifədən azad edilmiş şəxslər;*

*- qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar.*

Müsabiqənin test imtahanının yekunlarına görə, 70 və daha artıq bal toplamış namizədlər yazılı imtahana buraxılırlar.

Test imtahanının vaxtı, yeri, imtahan suallarının hazırlanmasında istifadə edilmiş qanunların siyahısı və digər məlumatlar barədə əlavə məlumat veriləcəkdir.

***Əlavə məlumatlar almaq üçün 545-03-14; 545-03-15 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***

## "Xidmət" ATSC səhmdarlarının nəzərinə!

Naxçıvan şəhəri, Xətai küçəsi 6 ünvanında yerləşən "Xidmət" ATSC-nin inzibati binasında 16 may 2014-cü il tarixdə saat $11^{00}$-də səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların ümumi yığıncağının keçirilməsi reqlamentinin təsdiqi*

*2. Cəmiyyətin 2013-cü ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı*

*3. İdarə heyətinin seçilməsi*

*4. Təftiş komissiyasının seçilməsi*

*5. 2014-cü ildə cəmiyyətin fəaliyyət proqramına baxılması*

*6. Sair məsələlər.*

***İdarə heyəti***

***Allah rəhmət eləsin***

Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Oruc Əliyev və mərkəzin kollektivi Xanım Mustafayevaya, anası

**KÜŞVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*

*Şöbələr: 545-81-44, 545-51-18*

*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*

E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 296